# YENİ AZƏRBAYCAN PARTİYASI XALQIN HEYDƏR ƏLİYEVƏ SEVGİSİ VƏ İNAMINDAN YARANMIŞDIR

**Fətullayeva Məhbubə Sərxan qızı**
**elmi işçi**
*Azərbaycan Elm və Təhsil Nazirliyi akademik H. Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H. Cavid prosp., 115*
*E-mail:mehbubefetullayeva7@gmail.com*

**Xülasə**

Məqalədə Ulu Öndər Heydər Əliyev ətrafında yaradılmış Yeni Azərbaycan Partiyasının fəaliyyəti ölkədə siyasi sabitliyin təmin olunmasına xidmət etməsi, siyasi irsinin inkişafının təməlində duran əsas ideoloji amilin, Heydər Əliyevin ətrafında yaradılmış partiya qısa müddət ərzində ümumxalq partiyasına çevrilməsi şərh olunmuşdur. İqtisadi və siyasi islahatların vəhdəti fonunda Azərbaycana beynəlxalq münasibətin daha da yüksəlməsi, Azərbaycanın demokratik ölkə kimi nüfuz qazanması, insan hüquqlarının müdafiəsi, azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində göstərilən səylərin miqyasının genişlənməsi xalqımızın yaddaşlardan silinməyən oğlu olan Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin öz xalqına olan sadiqliyi və ölkənin gələcəyi ilə bağlı olan mütərəqqi baxışlarının xalqı onun ətrafında birləşdirməsi, yorulmaz siyasi fəaliyyəti ona xalqın sevgi və ehtiramını qazandırması haqqında geniş məlumatlar yer almışdır. Müstəqil Azərbaycan dövlətinin banisi, bu dövləti inkişaf və tərəqqi yoluna çıxaran bir tarixi şəxsiyyət kimi, tarixin özünü yaradan bir insan kimi gələcək nəsillər də daim onunla fəxr edəcək, milli qürurumuz olaraq daim qəlblərdə yaşayacağı qeyd olunur.

**Açar sözlər:** Ulu Öndər, Yeni Azərbaycan Partiyası, xalq, Heydər Əliyev, xalqın sevgisi, Müstəqil Azərbaycan, gələcəyin partiyası

**Giriş.** Müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olan, dünya siyasətçisi, xalqımızın sevimlisi Ulu Öndər Heydər Əliyev, dövlətçilik tarixində müstəsna yeri olan, ölkəmizin inkişafı üçün tarix yazan şəxsiyyətdir. Tarixi uzaqgörənliyi sayəsində

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Dahi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə nail olmuşdur. Azərbaycanın geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpünün salınması və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilməsi məhz, Heydər Əliyevin fəaliyyəti nəticəsində baş tutmuşdur [Orucov H. 2001: 324 s.].

**Tədqiqatın şərhi.** Əbədi surətdə Heydər Əliyevin adı ilə bağlı olan milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü müasir dövrdə Azərbaycanın inkişafında ən vacib amillərdir. Respublikamızın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Heydər Əliyevin xidmətləridir.

Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmışdır. Vətənpərvər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Cənab İlham Əliyev Ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev yolunun layiqincə davam etdirdiyinə görə və memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna

möhkəm əminlik yaratmışdır. [Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur: 26.04.2021].

Müstəqilliyimizi möhkəmləndirən, dövlətçiliyimizi qüdrətləndirən və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artıran məhz Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi olmuşdur. Müasir Azərbaycanın siyasi həyatında özünəməxsus yer tutan Yeni Azərbaycan Partiyası elə bir təşkilatdır ki, o öz nüfuzunu müstəqillik tarixmizdəki rolu ilə cəmiyyətimizin aparıcı qüvvəsinə çevirilmişdir. İnkişaf etmiş bu partiya xalqın istək və arzularının təcəssümü kimi Heydər Əliyev ideallarının möhkəm təməli üzərində qurulub, onun yekdil iradəsinin ifadəsi olaraq tarixi zərurətdən yaranmışdır.

Bütün dünya azərbaycanlılarının sevimlisi, ulu öndər Heydər Əliyevin şəxsiyyəti ətrafında sıx birləşərək təşəkkül tapmış Yeni AzərbayP ölkənin ictimai-siyasi həyatında indiki mövqeyini tutmuşdur. Əvəzsiz xidmətləri olan Ulu öndərin Azərbaycan dövləti və xalqı qarşısında dövlət müstəqilliyinin qorunub saxlanılması, respublikanın sosial-iqtisadi inkişafı sahəsindəki misilsiz fəaliyyəti vardır.

Azərbaycanın tarixi köklərinə, milli-mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən YAP ümümxalq partiyasıdır. İnkişaf yoluna doğru istiqamətləndirilən və ötən zamanda ölkəni bəlalardan qurtaran partiya Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmışdır. YAP Azərbaycan Respublikası Konstitusiyası çərçivəsində öz Proqram və Nizamnaməsinə uyğun fəaliyyət göstərərək, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirir. Bu təşkilat demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olmaq, ölkədə sivil dəyərlər, insan hüquq və azadlıqlarının təminatı, liberal dəyərlərə

söykənən güclü və sosial yönümlü iqtisadiyyat, sosial ədalət və hər bir Azərbaycan vətəndaşının təminatlı rifahı uğrunda mübarizə aparır [Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır: 26.04.2021].

Məlumdur ki, Yeni Azərbaycan Partiyasının simvolu-dəfnə ağacı və onun mərkəzində səkkiz guşəli ulduzdan ibarətdir. Ulduzun içərisinə isə “YAP” yazılıb. Bayrağın üzərində partiyanın simvolu əks olunub. Partiyanın simvolu olaraq dəfnə ağacının simvol kimi seçilməsi də təsadüfi deyil. Çünki dəfnə zənginlik, rifah, xoşbəxtlik, azadlıq kimi mənaları özündə birləşdirir. Simvol ümumi müzakirə nəticəsində hazırlanmışdır. Onun konkret müəllifi isə YAP-ın yaradıcılarıdır. YAP-ın bayrağı ağ rəngdədir. Ağ isə Sülh, əmin-amanlıq rəmzidir.

Tarixi zərurətlərdən biri də bu oldu ki, Ümummilli lider Heydər Əliyevin YAP-a Sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gəldi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi.

Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyətini öz üzərinə götürməsinə Ümummilli lider Heydər Əliyevə imkan verən xalqın inamı oldu və tez bir zamanda siyasi səhnədə parladı. Azərbaycan xalqının Ümummilli liderimizə göstərdiyi yüksək etimad, Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında fəaliyyət göstərməsinə səbəb oldu. "Dünənin, bu günün və gələcəyin partiyasıdır” Ulu öndər Heydər Əliyevin yaratdığı partiya onun öz sözləri ilə bu cür səslənirdi. [Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir: 07 may 2021].

Azərbaycanın gələcəyə çıxış yolu bilavasitə Heydər Əliyevə YAP-ın yaradılması üçün Azərbaycan cəmiyyətinin sanki sifarişi idi. Xalqın müraciəti əsasında zəmanəmizin dühası ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına, ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, Azərbaycanın siyasi sisteminin əsasını təşkil edən Yeni Azərbaycan Partiyası yaradıldı. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi tarixi zərurətə çevrildi. Belə ki,  Azərbaycan tarixində yeni bir səhifə açıldı. 1993-cü il iyunun 15-də Azərbaycanın qurtuluş tarixi başlandı. Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikası real müstəqilliyinə qovuşdu. Xalq artıq sahibsiz deyildi. Ona dünya səviyyəli Lider Heydər Əliyev rəhbərlik edirdi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Yeni Azərbaycan Partiyasının fəaliyyəti yarandığı gündən ölkədə siyasi sabitliyin təmin olunmasına xidmət etmişdir. Yeni Azərbaycan Partiyasının VII Qurultayının keçirilməsi Prezidentimiz cənab İlham Əliyevin islahatlar siyasətinin davamıdır. 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbədən sonra yaranmış yeni reallıq siyasi islahatların dərinləşməsi üçün zəmin yaratmışdır. Yaranmış yeni reallıqlar hakim partiyada islahatların aparılması və yeni fəaliyyət prioritetlərinin müəyyən olunmasının zəruriliyini müəyyən etmişdir [Əsgərov Z, 2011: s.7.].

Bütün Azərbaycan xalqının yaddaşında əbədiyyətə çevrilən məqamdır ki, Ulu Öndər Heydər Əliyev ətrafında yaradılmış Yeni Azərbaycan Partiyasının fəaliyyəti ölkədə siyasi sabitliyin təmin olunmasına xidmət etmişdir. Tez bir zamanda Heydər Əliyevin ətrafında yaradılmış partiya ümumxalq partiyasına çevrilmişdir. Məhz, bu prinsip Ulu Öndər Heydər Əliyevin siyasi irsinin inkişafının təməlində duran əsas ideoloji amildir. Öz xalqına olan sadiqliyi və ölkənin gələcəyi ilə bağlı olan mütərəqqi baxışları xalqı

Ulu Öndərin ətrafında birləşdirdi və bu dahi insanın yorulmaz siyasi fəaliyyəti ona xalqın sevgi və ehtiramını qazandırmışdır.

Hazırda Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu getdikcə daha da artmaqdadır. Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Möhtərəm Prezident Cənab İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib. Bu gün YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində, Azərbaycan hər bir sahədə böyük inkişaf yolu qət edib. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir [Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir: 07 may 2021].

Azərbaycanda 1992-ci ildə hökm sürən ağır vəziyyət nəticəsində ölkə siyasi və iqtisadi böhran keçirirdi. Həmin dövrdə Azərbaycan xalqının düşünən beyinləri, öndə gedən ziyalıları bu çətin durumdan çıxmağın yeganə yolunu Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışında görürdülər. Çünki çoxsaylı siyasi hərəkatların, ən müxtəlif məqsədlərə və hədəflərə yönəlmiş axınların dağıdıcı fəaliyyətinin qarşısını yalnız müdrik siyasət, möhkəm iradə, güclü şəxsiyyət ətrafında xalqın birliyi ala bilərdi. İlk növbədə, Heydər Əliyevin siyasi proseslərə təsir göstərməsi, ictimai-siyasi hərəkatı düzgün istiqamətə yönəltməsi üçün bir siyasi təşkilata ehtiyac duyulurdu. Bu partiya çox böyük tarixi yol keçib. Müstəqil Azərbaycanın inkişafı, sosial-iqtisadi və digər sahələrdə inkişaf proqramının işlənməsində YAP-ın əvəzedilməz tarixi

xidməti var [Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır: 26.04.2021].

YAP Azərbaycan Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən sağ mərkəzyönlü siyasi partiyadır. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmlənmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirmişdir. 1995-ci ildə keçirilən Parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləri olduğundan ona olan ümumxalq inamı bir daha təsdiq edilmişdir. 1999-cu ildə keçirilən bələdiyyə seçkiləri də YAP-ın inamlı zəfəri ilə başa çatmış, partiyanın yerlərdəki nüfuzundan xəbər verən ən obyektiv göstərici rolunu oynamışdır.

Ulu Öndərimiz Heydər Əliyevin adı hər zaman müstəqil Azərbaycanla birgə çəkilir. Öz xalqına arxalanan, öz xalqının müstəqilliyi uğrunda canını belə fəda etməyə hazır olan Ümummilli Liderimiz Azərbaycan adlı dövlətin müstəqillik tarixinin yaradıcısı kimi xalqın etimadını doğrultdu. Xalqımızı da, dövlətimizi də nicat yoluna çıxardı. Tarix üçün çox qısa bir dönəmdə dövlətimizin müstəqilliyini əbədi etdi. Həyata keçirdiyi siyasət və genişmiqyaslı fəaliyyət öz bəhrəsini verdi. İctimai-siyasi, iqtisadi, mənəvi sahədəki tənəzzülün qarşısı alındı, inkişaf və tərəqqi başlandı. Respublikamız müstəqil bir dövlət kimi dünya birliyi ölkələri sırasında öz yerini tutdu. Beynəlxalq birlik Azərbaycanın güclü mövqeyi ilə hesablaşmağa başladı. Dünya azərbaycanlıları bir bayraq altında təşkilatlandı. Bu tarixi qərar Azərbaycanın təməlli inkişafının əsasını qoymuş oldu. Bu gün Yeni Azərbaycan

Partiyası etibarlı əllərdədir [Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır: 26.04.2021].

Yeni Azərbaycan Partiyasının 1999-cu ilin dekabrında və 2001-ci ilin noyabrında keçirilən I və II qurultayları təşkilatın həyatında taleyüklü qərarlar qəbul etmişdir. YAP-ın II qurutayında partiyanın nizamnaməsinə dəyişikliklər edilmiş və yeni təsis olunan sədrin birinci müavini vəzifəsinə yekdilliklə İlham Əliyev seçilmişdir. 1999-cu ildə İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini, 2001-ci ildə YAP-ın ikinci konqresində isə YAP sədrinin birinci müavini seçildi. 26 Mart 2005-ci ildə keçirilən YAP-ın üçüncü konqresində Prezident İlham Əliyev yekdilliklə YAP-ın sədri seçildi. 2008 və 2013-cü illərdə keçirilən YAP-ın dördüncü və beşinci konqresində İlham Əliyevin prezidentliyə namizədliyi yekdilliklə dəstəkləndi.

Beləliklə, İlham Əliyevin Yeni Azərbaycan Partiyasının sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başlandı. Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin rəhbərliyi ilə bütövlükdə ölkəmizdə həyata keçirilən işlər, xüsusilə son parlament seçkilərində yenidən YAP-ın inamlı qələbəsi bu partiyanın dünənin, bu günün və gələcəyin partiyası olaraq xalqın böyük inamı ilə respublikamızın ərazi bütövlüyünün bərpasında, xalqımızın mənafeyinin qorunmasında, hüquqi dövlət və azərbaycançılıq ideyasını tərənnüm edən milli birliyin yaranmasında nə qədər böyük rol oynadığını bir daha göstərir [Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır: 26.04.2021].

İqtisadi və siyasi islahatların vəhdəti fonunda Azərbaycana beynəlxalq münasibət daha da yüksəlir. Azərbaycan demokratik ölkə kimi nüfuz qazanıb. İnsan hüquqlarının müdafiəsi, azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara

uyğun keçirilməsi istiqamətində göstərilən səylərin miqyası genişdir.

Bu gün Yeni Azərbaycan Partiyası nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib. Heç şübhəsiz ki, bütün bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və bu gün Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın sədri İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasətin nəticəsində mümkün olub. Bu gün ölkəmizdə bütün uğurların, o cümlədən insan azadlığının, hüquqi dövlət quruculuğunun və düşmənlə döyüşdə qazanılan böyük tarixi Qələbənin, iqtisadi-sosial nailiyyətlərin birbaşa səbəbkarı olan Ulu Öndərimiz Heydər Əliyevin və onun layiqli və ləyaqətli davamçısı, görkəmli dövlət xadimi Prezident İlham Əliyevin adı ilə bağlıdır. Məhz Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası da ölkəmizin dünya miqyasında tutduğu mövqeyə paralel olaraq gündən-günə daha da mükəmməlləşir, təkmilləşir və öz sıralarını könüllü olaraq genişləndirərək inkişaf edir, milli dövlətçiliyimizin inkişafı naminə möhkəmlənir [Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır: 26.04.2021].

Son günlər xalqımızın yaşadığı şərəfli, qürurlu tarixi hadisələri xüsusilə qeyd etmək lazımdır. Bütün bunlar, Böyük Qələbənin təmin edilməsinə gedən yollar, həm də illərdən bəri Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə xalqımızın rifahı naminə aparılan düzgün, məntiqli siyasi proseslərin nəticəsidir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən davam və inkişaf etdirilən düzgün siyasi kursun məntiqi nəticəsi olaraq, bu gün doğma xalqımızın nəhayət ki, böyük arzusu gerçəkləşdi, müqəddəs Qarabağ torpaqlarının öz sahibinə qaytarıldığı böyük sevinc hissini yaşadıq. Qarabağ savaşında

qazanılan böyük qələbə ölkə rəhbərimizə, Ali Baş Komandanımıza, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə böyük sevgini, inamı birə beş artırmışdır. Xalqına güvənən böyük Azərbaycan oğlunun siyasətdə və diplomatik arenada qazandığı qələbələr xalqın ona, onun da xalqa arxalanmasında əminliyi və bundan sonrakı addımlarında daha da güvənilməsinə əsas verir.

Bu şərəf və qürurlu yol müasir, müstəqil Azərbaycanın bu günkü reallıqlarıdır. O reallıqlar ki, Azərbaycan bu gün regionun aparıcı qüvvəsi, dünya birliyinin fəal üzvüdür. Azərbaycan bu gerçəkliklərə əsaslanaraq yeni-yeni hədəflərə doğru uğurla, inamla addımlayır. Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyevlə başlanan bu yol daha xoşbəxt sabaha günəş kimi işıq saçacaq.

**Nəticə:** Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim nur ələyəcəkdir. Nə qədər müstəqil Azərbaycanımız yaşayır, dahi Heydər Əliyevin adı da onunla qoşa çəkiləcək. Müstəqil Azərbaycan dövlətinin banisi, bu dövləti inkişaf və tərəqqi yoluna çıxaran bir tarixi şəxsiyyət kimi, tarixin özünü yaradan bir insan kimi gələcək nəsillər də daim onunla fəxr edəcək, milli qürurumuz olaraq daim qəlbimizdə yaşayacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. II kitab. Bakı: Azərnəşr, 1997, 588 s.
3. Heydər Əliyevin müdrik kəlamları: Heydər Əliyev təhsil haqqında http://www.clb.az/html/heydar.aliyev.application.9.html
4. Orucov H. Z. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.

5. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur; http://anl.az/down/ meqale/yeni_az/2011/aprel/171798. htm İstinad tarixi: 26.04.2021.
6. Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır; http://anl.az/down/meqale/ses/2011/mart/165015.htm İstinad tarixi: 26.04.2021.
7. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2006.
8. Rzayev R.M. Ümummilli liderin hüquqi baxışlarının Azərbaycan Respublikası Konstitusiyasında təzahürü // Respublika, 10.05.2013, № 99, s.8-10.
9. Əsgərov Z.T. Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi //Azərbaycan, 2011, 7 may, s.7.
10. Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir // Bələdiyyə xəbərləri - 07 may 2021) // https: azertag/az/xeber /Heyder_ Aliyev_Azerbaycanda_ yerli_ özünü idarəetmenin _banisidir /17776001 (http: // belediyye.info.az).

## Партия «Ени Азербайджан» родилась из любви и доверия народа к Гейдару Алиеву

### Резюме

В статье поясняется, что деятельность партии «Ени Азербайджан», созданной вокруг Великого лидера Гейдара Алиева, служит обеспечению политической стабильности в стране, что является основным идеологическим фактором, лежащим в основе развития ее политического наследия, партии, созданной вокруг Гейдара Алиева. за короткий период времени стала национальной партией. На фоне единства экономических и политических реформ, дальнейшего подъема международного отношения к Азербайджану, завоевания репутации Азербайджана как демократической страны, расширения масштабов усилий, предпринимаемых в направлении защиты прав человека Развитие свободной прессы, проведение выборов в соответствии с демократическими и международными стандартами связаны с неизгладимым из памяти именем Гейдара Алиева, сына нашего народа. Имеются обширные сведения о преданности Великого Вождя своему народу и его прогрессивных взглядах на будущее страны, которые объединяли окружавшие его люди, а также о том, как его неутомимая политическая деятельность снискала ему любовь и уважение народа.

Отмечается, что будущие поколения всегда будут гордиться им как основателем независимого Азербайджанского государства, как историческим деятелем, выведшим это государство на путь развития и прогресса, как человеком, создавшим саму историю, и всегда будет жить. в наших сердцах как наша национальная гордость.
**Ключевые слова:** Великий лидер, Партия «Ени Азербайджан», народ, Гейдар Алиев,народная любовь, Независимый Азербайджан, партия будущего

## The New Azerbaijan Party was born out of the people's love and trust in Heydar Aliyev

### Summary

The article explained that the activities of the New Azerbaijan Party, created around the Great Leader Heydar Aliyev, served to ensure political stability in the country, the main ideological factor underlying the development of its political heritage, the party created around Heydar Aliyev, in a short time turned into national party. Against the background of the unity of economic and political reforms, further enhancement of international relations towards Azerbaijan, gaining the reputation of Azerbaijan as a democratic country, expanding the scale of efforts undertaken towards the protection of human rights. , the development of a free press, the holding of elections in accordance with democratic and international standards are associated with the name of Heydar Aliyev, the son of our people, who will not be erased from memory. There is extensive information about the devotion of the Great Leader to his people and his progressive views on the future of the country, which rallied the people around him, and how his tireless political activity earned him the love and respect of the people. It is noted that future generations will always be proud of him as the founder of the independent Azerbaijani state, as a historical figure who led this state to the path of development and progress, as a person who created history itself, and will always live in our hearts as our national pride.

**Key words**: Great leader, New Azerbaijan Party, people, Heydar Aliyev, love of the people, independent Azerbaijan, party of the future